

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 65 (23.952)

9 aprel 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edib.

Dövlətimizin başçısı görüşdə çıxış edərək deyib ki, bir neçə gün bundan əvvəl Budapeştdə keçirilmiş Avropa çempionatında güləşçilərimiz bir daha xalqımızı sevindirmişlər, böyük qələbə ilə Vətənə qayıtmışlar. 16 medal qazanmış idmançılar bir daha Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmışlar. Bu medalların birini qadın idmançımız qazandı, qalanlarını isə sərbəst güləş və yunan-Roma güləşi üzrə komandalarımız. Beləliklə həm sərbəst güləş, həm yunan-Roma güləşi üzrə komandalarımız Avropada birinci oldular. Bu, böyük qələbədir, böyük nailiyyətdir. Prezident İlham Əliyev deyib: "Bir müddət bundan əvvəl elə bu otaqda gənc güləşçilərlə görüş zamanı onlara bildirmişdim, yarışa çıxanda unutmamalıdırlar ki, müzəffər ölkəni və qalib xalqı təmsil edirlər. Həm gənclər, həm böyüklər arasında Avropada birinci yeri tutmaq bir daha demək istəyirəm ki, böyük nailiyyətimizdir və onu göstərir ki, güləşdəki ənənələrimiz yaşayır və güclü gənc nəsil yetişir. Böyüklər arasında biz öz gücümüzü hər dəfə təsdiqləyirik, həm ölkəmizin idman şöhrəti və bütövlükdə ölkəmizin nüfuzu artır".



### Dövlət proqramı icra olunur

## Dövlət uşaq siyasəti uğurla həyata keçirilir

*Uşaqlar hər bir ailənin xoşbəxtliyi,cəmiyyətimizin gələcəyi, dövlətin ən qiymətli sərvətidir. Bu qiymətli sərvəti fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyətə faydalı vətəndaş, Vətənə sadiq övlad kimi böyütmək çətin və məsuliyyətli olduğu qədər də şərəflidir. Ona görə də onların təhsil almalarına, sağlamlıqlarına, hərtərəfli inkişaf etmələrinə yüksək qayğı ilə yanaşılır.* ***"Biz uşaqlarımızı yaxşı tərbiyə etməli, yaxşı şəraitdə yaşatmalı, onları gələcək üçün hazırlamalıyıq"****, – deyən ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə dövlət uşaq siyasətinin hüquqi əsasları formalaşdırılıb.*







Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət uşaq siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün kateqoriyadan olan uşaqlar, həmçinin valideyn himayəsindən məhrum olmuş və valideynlərini itirmiş uşaqların sosial müdafiələrinin gücləndirilməsi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bunun ifadəsidir ki, "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 dekabr tarixli Fərmanına əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara ödənilən müavinətin məbləği artırılaraq 100 manatdan 120 manatadək, övladlığa uşaq götürənlərə ödənilən aylıq müavinət isə 160 manatdan 200 manatadək artırılıb. Bundan başqa, dövlət, özəl ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların təhsil haqqının dövlət tərəfindən ödənilməsi bu qəbildən olan uşaqlara göstərilən qayğıdan xəbər verir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 25 yanvar tarixli Qərarı ilə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" dəyişiklik edilib. Dəyişikliyə görə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar ilk dəfə işə düzələn zaman Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə ayrılmış vəsait hesabına qanunvericiliklə müəyyən olunmuş normativlər üzrə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqla, eləcə də ortaaylıq əməkhaqqının 5 mislindən az olmayan miqdarda birdəfəlik müavinətlə təmin olunurdusa, artıq bu xərclərin Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılmış vəsait hesabına ödənilməsi təmin ediləcəkdir.

Qürur hissi ilə deyə bilərik ki, muxtar respublikamızda valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar hərtərəfli təminatla əhatə ediliblər. Dövlətimizin göstərdiyi qayğının nəticəsidir ki, muxtar respublikada fəaliyyət göstərən Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində valideyn himayəsindən məhrum olmuş uşaq yoxdur. Müvafiq təbəqədən olan uşaqların hər biri qohumlarının himayəsində yaşayır, milli dəyərlər əsasında tərbiyə olunur, ali və orta ixtisas müəssisələrində təhsil alaraq gələcəyin əsl layiqli vətəndaşları kimi yetişirlər. Bunun ifadəsidir ki, müvafiq kateqoriyadan olan 19 gənc dövlətimizin göstərdiyi qayğı nəticəsində orta ixtisas və ali təhsil müəssisələrində təhsil alır. Bu da muxtar respublikada uşaq hüquqlarının, qohumluq əlaqələrinin və ailə dəyərlərinin necə yüksək səviyyədə qorunduğunun bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, tək valideynli, valideyn himayəsindən məhrum olmuş uşaqlara qış geyimləri, hədiyyələr verilir, həmin uşaqların yaşadıqları evlərdə monitorinqlər keçirilir, monitorinq zamanı uşaqların təlim-tərbiyələri, yaşayış və sosial şəraitləri, sağlamlıqları və uşaq hüquqlarını əhatə edən digər sahələr yoxlanılır, qəyyum və himayədarlar, eləcə də uşaqlarla qanunamüvafiq söhbətlər aparılır. Görülən işlərin davamı kimi Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iş planına uyğun olaraq komissiyanın ekspert qrupu tərəfindən muxtar respublika üzrə ötən il, ümumilikdə, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 10 uşağın yaşadığı evlərdə monitorinq aparılıb. Həyata keçirilən monitorinqlərin məqsədi uşaqların hüquq və mənafelərinin qorunması, onların hüquqlarının pozulmasına səbəb ola biləcək halların qarşısının alınmasından ibarətdir.

Həmçinin komitə tərəfindən hər iki valideynini itirmiş, tək valideynli, valideyn himayəsindən məhrum olmuş uşaqların yay tətili günlərində asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə muxtar respublikanın istirahət guşələrinə, muzeylərə və tarixi abidələrə ekskursiyalar təşkil edilir. Ekskursiyalara cəlb olunmuş uşaqlara Naxçıvan Dövlət Film Fondunda vətənpərvərlik mövzusunda filmlər göstərilir, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında tamaşalar nümayiş etdirilir. Həmin kateqoriyadan olan uşaqların iştirakı ilə "Yay məktəbi" təşkil olunur, müxtəlif idman və əyləncəli oyunlar, intellektual yarışlar keçirilir. Yay tətili günlərində onların Ağbulaq İstirahət Mərkəzində istirahətləri təmin olunur, 15 sentyabr – Bilik Günü ərəfəsində bu sosial kateqoriyaya aid uşaqlara məktəbli formaları və dərs ləvazimatları verilir, onlar qış geyimləri ilə təmin olunurlar.

Bir sözlə, qürurvericidir ki, gələcəyin qurucuları olan uşaqlar belə bir cəmiyyətdə böyüyür. Qürurvericidir ki, uşaqların xoşbəxtliyinə, gülüş sədalarına, firavan yaşayışımıza səbəb olan bu diyarda yaşamaq nəsibimiz olub. Əminik ki, cəmiyyətin ən həssas təbəqəsi olan uşaqlarla bağlı qarşıya qoyulan vəzifələr bundan sonra da uğurla yerinə yetiriləcəkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Uşaqlara qayğı yalnız dövlət qurumlarının yox, hamının mühüm vəzifəsi olmalıdır. Uşaqların xalqımıza xas olan milli dəyərlər ruhunda tərbiyə olunması, təhsilli, vətənpərvər və sağlam yetişmələri bizim hamımızı düşündürməlidir, cəmiyyətin bütün təbəqələri dövlət uşaq siyasətinin həyata keçirilməsinə öz töhfəsini verməlidir".***

**Nuray ƏSGƏROVA**

*Muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan səmərəli istifadəyə nəzarət Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən mart ayında da diqqətdə saxlanılıb, xidmətin fəaliyyət istiqamətləri üzrə işlərin icrası uğurla davam etdirilib.*

## Ötən ay 532 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb

Ötən ay 532 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 384 texniki sənəd hazırlanıb, yeni yaranmış 23 daşınmaz əmlak obyektinə ünvan verilib, 78 torpaq sahəsinin planı və ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun Alışar, Şahbulaq, Gümüşlü və Aşağı Yaycı kəndlərinin ərazisində monitorinqlər başa çatdırılıb, müəyyən edilmiş qanun pozuntularının aradan qaldırılması üçün tədbirlər görülüb. Şərur rayonunun Axura, Yuxarı Yaycı kəndlərinin və Kəngərli rayonunun Qıvraq qəsəbəsinin ərazisində isə monitorinqlər davam etdirilib.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq Sədərək və Kəngərli rayonlarında meyvə bağlarına, yaşıllıq zolaqlarına dair məlumatlar dəqiqləşdirilərək torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil edilib. "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"na uyğun olaraq Ordubad rayonunun Vənənd kəndində bələdiyyə sədrlərinin, ailə təsərrüfatları başçılarının, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib.

Hesabat ayında səyyar xidmət vasitəsilə 7 yaşayış məntəqəsində 26 vətəndaşın müraciətinə baxılıb, 97 fiziki və hüquqi şəxs elektron xidmətlərdən yararlanıb. Mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və daşınmaz əmlakla bağlı digər əməliyyatların aparılması üçün vətəndaşlardan 1086 ərizə qəbul edilərək icra olunub. 6 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar ailə təsərrüfatlarının icarəsinə verilmiş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər mart ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 29 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətində, ümumilikdə, 457 müraciət qeydə alınıb. Həmin müraciətlərdən 152-si əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin və əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılıb, müvafiq qərarlar qəbul edilib.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı daxil olmuş 305 müraciətin icrası təmin edilib, həmin müraciətlərdən 47-si elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul olunub.

Xidmət tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***



# Muxtar respublikada tikinti-quruculuq işləri uğurla davam etdirilir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 16 dekabr tarixli Sərəncamına əsasən hər il aprelin 10-u ölkəmizdə "İnşaatçılar Günü" kimi qeyd olunur.*

İnşaat sektorunun inkişafı, bütövlükdə, ölkənin sosial-iqtisadi tərəqqisinə təkan verən mühüm amillərdən biri hesab edilir. Məhz buna görədir ki, ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi illərdə tikinti-quruculuq işlərinə xüsusi diqqət göstərmişdir. Ötən əsrin 70-ci illərində respublikamızda tikinti sektorunun inkişafı xeyli sürətlənmiş, şəhər və rayonlarda nəhəng istehsal müəssisələri, yüzlərlə yaşayış binası, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilmişdi. Ümummilli liderin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə tikinti-quruculuq işlərinin həcmi daha da genişlənmiş, inşaat sektorunda fəaliyyət göstərən dövlət təşkilatlarına və özəl şirkətlərə maliyyə dəstəyi artırılmış, uzun illər bu sahədə çalışmış, peşəkarlıq qazanmış inşaatçıları öz ətrafında birləşdirən tikinti təşkilatları mütəşəkkil qurucu qüvvəyə çevrilmişdir. Dahi şəxsiyyətin zəngin dövlətçilik təcrübəsi sayəsində ölkəmizdə milli memarlıq üslubu saxlanılmaqla genişmiqyaslı quruculuq proqramı həyata keçirilmişdir.

Ulu öndərin siyasi xəttinin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycanda böyük tikinti-quruculuq işləri aparılır. Son illər qəbul edilən Dövlət proqramlarının uğurlu icrası iqtisadiyyatın kompleks inkişafına səbəb olmuş, tikinti işlərinin əhatə dairəsi xeyli genişlənmişdir. Bu da, nəticə etibarilə, yeni iş yerlərinin açılmasına, məşğulluq probleminin aradan qaldırılmasına və əhalinin rifahının yaxşılaşdırılmasına səbəb olmuşdur.

Bu gün Naxçıvan Muxtar Respublikasında yenidənqurma, quruculuq işləri uğurla davam etdirilir, şəhər və rayonlarımızda müasir binalar ucaldılır, tarixi abidələr bərpa olunur. Qabaqcıl dünya təcrübəsini və inşaat texnologiyalarını mənimsəyən tikinti sektoru muxtar respublikaya sürətli quruculuq, səmərəli podratçılıq, yüksək keyfiyyət və müasir dizayn gətirmişdir. Kifayət qədər təcrübə sahibi olan muxtar respublika inşaatçıları öhdələrinə götürdükləri işi qısa müddətdə və yüksək keyfiyyətlə başa çatdırır, verilən tapşırıqları vaxtında yerinə yetirirlər. Tikinti-quruculuq işləri aparılarkən müasirliklə milliliyin vəhdəti əsas götürülür, Naxçıvan memarlıq məktəbinin ənənələri yaşadılır. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi yaşayış məntəqələrinin simasını tamamilə dəyişmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada tarazlı inkişaf təmin olunmuş, investisiya qoyuluşları bütün fəaliyyət istiqamətlərini əhatə etmişdir. Belə ki, 2021-ci ildə muxtar respublikada infrastruktur quruculuğu istiqamətində əsas kapitala 1 milyard 62 milyon 165 min 800 manat vəsait yönəldilmişdir ki, bunun da 1 milyard 6 milyon 544 min 300 manatı və ya 94,8 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür. Aparılan işlər təsərrüfat həyatının bütün sahələrini əhatə edir.




Ötən il muxtar respublikada 2944 şagird yerlik 10 məktəb binası, 10 kənd və 10 xidmət mərkəzi daxil olmaqla, 355 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, 149 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilmişdir. 2021-ci ildə muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 376 min 661 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir.

Müstəqillik illərində muxtar respublikanın quruculuq xəritəsi xeyli genişlənmiş, yeni istehsal müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları üçün müasir binalar, hərbi təyinatlı obyektlər tikilərək istifadəyə verilmişdir. Belə ki, ötən dövrdə muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri 12 milyard 852 milyon 434 min 800 manat olmuşdur ki, bunun da 11 milyard 591 milyon 423 min 600 manatı və ya 90,2 faizi tikinti-quraşdırma işlərinə sərf olunmuş, 233 elm və təhsil ocağı, o cümlədən 174 ümumtəhsil məktəbi, 364 mədəniyyət obyekti, 252 səhiyyə obyekti, 29 idman obyekti, 353 inzibati bina, o cümlədən 153 şəhər, qəsəbə və kənd mərkəzləri, 61 nasos stansiyası, 328 subartezian quyusu, 1346 istehsal və xidmət sahəsi, 109 körpü tikilərək, 198 elm və təhsil ocağı, o cümlədən 135 ümumtəhsil məktəbi, 205 mədəniyyət obyekti, 70 səhiyyə obyekti, 29 idman obyekti, 288 inzibati bina, o cümlədən 29 kənd mərkəzi, 114 nasos stansiyası, 122 subartezian quyusu, 86 körpü, 3918,3 kilometr yol yenidən qurularaq və ya əsaslı təmir olunaraq sakinlərin istifadəsinə verilmişdir.

Muxtar respublikada alternativ enerji istehsalı sahələrinin yaradılması istiqamətində ötən il 5 meqavat gücündə Şərur Günəş Elektrik Stansiyasının və Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyasının tikintisi başa çatdırılmış, Ordubad rayonunda Ordubad Su Elektrik Stansiyasının və Şərur rayonunda Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir. Şərur rayonunun Maxta və Muğanlı kəndlərində 35/10 kilovoltluq transformator yarımstansiyalarının, Şərur şəhərində yüksəkgərginlikli elektrik xətti üçün tunelin tikintisi başa çatdırılmış, Culfa rayonunda 132/110/35 kilovoltluq elektrik yarımstansiyasının tikintisi davam etdirilmişdir.



Müasir yol-nəqliyyat infrastrukturu dövlətin iqtisadi inkişafının əsas göstəricilərindən biridir. Yol-nəqliyyat infrastrukturunun da təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər, bu gün muxtar respublikada aparılan tikinti-quruculuq işlərinin əsasını təşkil edir. Son illər muxtar respublikanın bütün bölgələrində avtomobillərin rahat və təhlükəsiz hərəkəti təmin olunmuş, şəhər və rayon mərkəzlərində müasir yollar çəkilmiş, magistral və yerli əhəmiyyətli yollar yenidən qurulmuşdur. Ötən il Prezident cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" və "Culfa-Ordubad avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" sərəncamlarına əsasən Culfa-Ordubad magistral avtomobil yolu inşa olunmuşdur. Həmçinin Naxçıvan şəhərində iki avtomobil yolunun, Culfa şəhərində daxili avtomobil yolunun, Şərur şəhərinə giriş və daxili avtomobil yollarının, Babək rayonunun Göynük, Araz, Ordubad rayonunun Yuxarı Əndəmic-Nüsnüs, Ordubad şəhər-Aşağı Əndəmic və Şərur rayonunun Şəhriyar, Çərçiboğan, Dərvişlər kənd avtomobil yollarının, Şərur şəhərində yeraltı piyada keçidinin yenidən qurulması başa çatdırılmışdır. Naxçıvan şəhərində iki avtomobil yolunun, Xanlıqlar-Aşağı Daşarx-Yuxarı Daşarx, Xanlıqlar-Şərur şəhər-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi, Maxta-Dəmirçi, Ordubad rayonunda Vənənd-Pəzməri kənd avtomobil yollarının yenidən qurulması davam etdirilmişdir.



Əhaliyə göstərilən səhiyyə xidmətlərinin daha da yaxşılaşdırılması istiqamətində Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin, modul tipli xəstəxananın, Şərur və Şahbuz Rayon Gigiyena və Epidemiologiya şöbələrinin, Şərur rayonunun Şəhriyar, Çərçiboğan, Ordubad rayonunun Nüsnüs, Yuxarı Əndəmic və Dırnıs kəndlərində həkim ambulatoriyası binalarının, Şərur rayonunun Dərvişlər, Ordubad rayonunun Vələver, Babək rayonunun Araz kəndlərində feldşer-mama məntəqələrinin tikintisi, Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin, Ordubad Rayon Uşaq Xəstəxanası binalarının və Babək rayonunun Göynük kəndində feldşer-mama məntəqəsinin yenidən qurulması başa çatdırılmışdır.

Muxtar respublikada milli dəyərlərimizin təbliği, onun daha da zənginləşdirilərək gələcək nəsillərə ötürülməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilir. Bu istiqamətdə 2021-ci ildə Şahbuz rayonunda Tarix-Diyarşünaslıq Muzeyi istifadəyə verilmiş, Naxçıvan şəhərində Uşaq Kitabxanasının və Kəngərli rayonunda Tarix-Diyarşünaslıq Muzeyinin tikintisi davam etdirilmişdir.

Ötən ilin ən mühüm hadisələrindən biri ölkə Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya səfəri olmuşdur. Ölkə başçısı səfəri zamanı Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının, Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromunun, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının, Süni Mayalanma Mərkəzinin, Culfa-Ordubad magistral avtomobil yolunun, Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılışında iştirak etmiş, "ASAN xidmət" Mərkəzinin və Ordubad Su Elektrik Stansiyasının tikintisi, Ordubad Dəmir Yolu Stansiyasının yenidən qurulması ilə tanış olmuşdur. Muxtar respublikada aparılan irimiqyaslı quruculuq tədbirlərini yüksək qiymətləndirən ölkə başçısı demişdir: ***"Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".***



Peşə bayramlarını qeyd edən muxtar respublika inşaatçıları bundan sonra da əzmlə çalışacaq, yaradıcı əməklərini müstəqil Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının daha da inkişafına sərf edəcəklər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi***

## Ötən ay 154 vətəndaşa əmək pensiyası təyin olunub

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu cari ilin mart ayında fəaliyyət sahələrinə uyğun olaraq əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün müvafiq işlər görüb. Əmək pensiyalarının ödənilməsinə 16 milyon 380 min manat, məcburi dövlət sosial sığortahaqqı üzrə ödəmələrə isə 375 min manat vəsait xərclənib.

Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyasına qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 2022-ci il 4 mart tarixli Sərəncamına uyğun olaraq 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş qulluq stajına görə əlavələr alan 4247 əmək pensiyaçısına cari ildə aylıq əmək pensiyası məbləğlərinin 10 faizi məbləğində maddi yardım ödənilib.

Müvafiq dövrdə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq 122-si yaşa, 15-i sağlamlıq imkanları məhdudluğa görə, 17-si ailə başçısını itirməyə görə olmaqla, pensiya hüququ yaranan 154 vətəndaşa əmək pensiyası təyin edilib. Pensiya təyin olunanlardan 144-nə qanunvericiliyə əsasən ilk dəfə təyinat olub, 10-nun isə pensiya növündə dəyişiklik edilib. Fərdi uçot sistemində də işlər davam etdirilib və yeni əmək fəaliyyətinə başlayan 364 sığortaolunana şəxsi hesab açılıb.

Ötən ay müvafiq qurum tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə 12 milyon 303 min 200 manat vəsait yığılaraq fondun xəzinə hesabına köçürülüb ki, bu da nəzərdə tutulan məbləğdən 18,7 faiz çoxdur. Pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 73,4 faizi məcburi dövlət sosial sığortahaqqı olaraq muxtar respublikada yığılıb. Hesabat dövründə 1 hüquqi şəxs və 220 fiziki şəxs məcburi dövlət sosial sığorta ödəyicisi kimi uçota alınıb. Bundan əlavə, deputatların, hərbi qulluqçuların, məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşlarının icbari şəxsi sığortası sahəsində müvafiq işlər görülüb, sığortaedənlər tərəfindən 303 min 334 manat vəsait fondun xüsusi hesabına köçürülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Tələbələr istehsalat təcrübəsinə başlayıblar



*"Naxçıvan" Universitetində İqtisadiyyat və İdarəetmə fakültələrinin əyani şöbəsinin III kurs tələbələrinin 2021-2022-ci tədris ilinin II yarım ilində keçəcəkləri istehsalat təcrübəsinə həsr edilmiş konfrans keçirilib.*

Konfransda universitetin rektoru, dosent Nurlana Əliyeva istehsalat təcrübəsinin əhəmiyyətindən və təcrübə qaydalarından danışaraq ali təhsil prosesində qazanılan nəzəri bilikləri istehsalat təcrübəsində möhkəmləndirmək və dərinləşdirmək prosesində tələbələrə uğurlar arzu edib.

Konfransda "Naxçıvan" Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylunun, İqtisadiyyat kafedrasının müdiri, dosent Həsən Məmmədovun və İdarəetmə kafedrasının müdiri, dosent İradə Bağırovanın çıxışları dinlənilib. Qeyd olunub ki, 120 tələbə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində, Dövlət Vergi Xidmətində, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində, Turizm Departamentində, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsində 7-8 həftəlik təcrübə keçəcəklər.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yaradılmasının 40 illiyi qeyd olunub



*Dünən Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin 40 illiyi münasibətilə tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamı muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişinin təmin olunması ilə yanaşı, həm də qədim Oğuz yurdunun tarixi keçmişinin, mədəniyyətinin öyrənilməsində əhəmiyyətli rol oynayır. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən bu gün muxtar respublikamızda olan muzeylərlə ümumtəhsil məktəbləri arasında distant dərslər, həmçinin yetişməkdə olan gənc nəsil üçün açıq dərslər keçilir.

Vurğulanıb ki, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1982-ci ildə Came məscidində fəaliyyətə başlamışdır. Muzey öz fəaliyyətini 1990-cı ilin may ayından etibarən XVII əsrə aid tarix-memarlıq abidəsi olan Qeysəriyyə binasında davam etdirir. 2011-ci ildə muzeyin yerləşdiyi Qeysəriyyə binası əsaslı şəkildə bərpa olunub. 150 ədəd eksponatla fəaliyyətə başlayan tarix-diyarşünaslıq muzeyində hazırda 4289 ədəd eksponat mühafizə və nümayiş edilir.

Mədəniyyət naziri muzey işinin qurulması və təşkilinə göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova muxtar respublikanın mədəniyyət ictimaiyyəti adından minnətdarlığını bildirib.

Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynova "Ordubad muzeyləri dünən və bu gün" mövzusunda çıxışında qeyd edib ki, ümummilli lider Heydər Əliyevin qayğısı ilə Ordubad rayonunda tarixi romanlar müəllifi Məmməd Səid Ordubadinin, görkəmli akademik Yusif Məmmədəliyevin ev-muzeyləri və Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi yaradılıb. Son illər muxtar respublikamızda yeni-yeni muzeylər yaradılmaqla yanaşı, mövcud olan muzeylərin yerləşdiyi binalar müasir tələblər səviyyəsində yenidən qurulur, təmir-bərpa edilir, eksponatlara zənginləşdirilir. Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi tarixi Qeysəriyyə binası 2011-ci ildə Ali Məclisin Sədri cənab Vasif Talıbovun təşəbbüsü ilə əsaslı şəkildə bərpa olunub, "Gəmiqaya" Tarix-Bədii Qoruğu və muzey üçün bina tikilib, 2015-ci ildə görkəmli pedaqoq və maarifpərvər Məhəmməd Tağı Sidqinin ev-muzeyi yaradılıb.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru İlahi Mirzəyev "Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin rayonun mədəni həyatında rolu" mövzusunda çıxış edib. Bildirilib ki, digər muzeylər kimi Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin fondu da ildən-ilə zənginləşir. Yubiley tədbiri ilə birgə yeni eksponatların təqdimat mərasiminin keçirilməsi maddi-mədəni irsimizin qorunması baxımından çox əhəmiyyətlidir.

Çıxışlardan sonra muzeyin ekspozisiyasına və yeni hədiyyə olunan eksponatların sərgisinə baxış olub. Qeyd edək ki, muzeyə yeni təqdim olunan 100 ədəd yeni eksponat qədim məişət əşyaları, numizmatika və dekorativ-tətbiqi sənət nümunələrindən ibarət olmaqla zəngin tariximizin və milli mədəniyyətimizin tədqiqi və təbliği baxımından əhəmiyyətli eksponatlardır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Diaqnostika Müalicə Mərkəzi Şahbuzda tibbi aksiya təşkil edib



Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin ödənişsiz tibbi xidmət aksiyasının növbəti ünvanı Şahbuz rayonu olub.

Rayon Mərkəzi Xəstəxanasında keçiriləн aksiya üçün əvvəlcədən hazırlıq işləri görülüb, müayinə və müalicə olunacaq xəstələrin siyahısı hazırlanaraq xəstəxanaya dəvət olunublar. Diaqnostika Müalicə Mərkəzinin 12 nəfərdən ibarət həkim heyəti tərəfindən 123 nəfər pulsuz, tibbi sığorta göndərişi tələb olunmadan laborator-diaqnostik müayinələrdən keçirilib, təmənnasız cərrahi tibbi müayinə və digər tibbi xidmətlərdən yararlanıb.

Terapevtik, kardioloji, rentgenoloji, laborator, stomatoloji, nevroloji və digər müayinələrdən keçənlərə tibbi yardım göstərilib, müvafiq təyinat və məsləhətlər verilib. Aztəminatlı ailədən 1 uşaq sünnət olunub. Şəhid ailəsindən olan 1-ci qrup sağlamlıq imkanları məhdud 1 nəfər fizioterapiya müayinəsi, 3 nəfər isə digər müayinələr üçün stasionara dəvət edilib.

Aksiyadan yararlananlar göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edərək bütün bunları qazilərə, şəhid və aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndiriblər.

## Yuxarı sinif şagirdlərində flüoroqrafiya müayinəsi aparılıb



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tədbirlər planına uyğun olaraq yeniyetmələr arasında vərəmin profilaktikası və vaxtında aşkar edilməsini təmin etmək üçün muxtar respublika ərazisində IX-XI sinif şagirdlərinin profilaktik flüoroqrafik müayinələrinə start verilib.

Bu tədbirin Naxçıvan şəhərində mütəşəkkil keçirilməsi üçün Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən təşkilati işlər aparılıb. Profilaktik flüoroqrafiya müayinələrinə Naxçıvan şəhərindəki 11 nömrəli tam orta məktəbdə start verilib. Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən 97 şagird flüoroqrafiya müayinəsindən keçirilib. Xəstəlik halları aşkar edilməyib. Müayinələrin nəticələri müsbət və şübhəli olan uşaqların daha dərin müayinələrə cəlb olunmasına lazımi köməklik göstəriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Tanınmış professor tələbələrə mülki və ailə hüququ haqqında təlim keçib

Tanınmış hüquqşünas-alim, professor Məhəbbət Dəmirçiyeva Naxçıvan Dövlət Universitetinin tələbələri üçün mülki və ailə hüququ haqqında təlim keçib. Universitetin rektoru Elbrus İsayev qonağı salamlayaraq ali təhsil ocağında Hüquqşünaslıq ixtisasının yaranma tarixi, fəaliyyəti və qazandığı uğurlar haqqında ətraflı məlumat verib. Qeyd edilib ki, işinin peşəkarı, bu sahədə öz sözünü deyən professor Məhəbbət Dəmirçiyeva Azərbaycanda mülki hüquq üzrə yeganə xanım hüquqşünasdır. Elbrus İsayev universitetə hədiyyə etdiyi 50-dən artıq elmi-tədris ədəbiyyatına görə professora öz təşəkkürünü bildirərək tələbələrin bu kitablardan səmərəli formada faydalanacağını əminliklə ifadə edib.



Professor Məhəbbət Dəmirçiyeva qeyd edib ki, mülki hüquq fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini, onların əmlak və şəxsi qeyri-əmlak hüquqlarının əmələ gəlməsi əsaslarını, həyata keçirilməsi və xitam verilməsi qaydalarını müəyyənləşdirir. Professor ailə hüququ haqqında danışarkən qeyd edib ki, hüquq sahəsi olaraq ailə hüququ ictimai münasibətlərin müəyyən növünü – ailə münasibətlərini, yəni nikah faktından meydana gələn və ailəyə mənsub olan münasibətləri tənzim edir.

Sonda professor tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Baxış-müsabiqə

Əlahiddə Ümumqoşun Orduda istismarda olan avtomobil texnikalarına baxış-müsabiqə keçirilib. Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri arasında təşkil olunan baxış-müsabiqədə hərbi avtomobil texnikalarının saz vəziyyətdə saxlanmasına, təlimata uyğun istifadə və istismarına xüsusi diqqət yetirilib.



Müsabiqə zamanı istismarda olan hər növdə avtomobil texnikalarına gündəlik texniki xidmətin göstərilməsi ardıcıllığı yoxlanılıb. Müsabiqəyə müxtəlif markalı və təyinatlı minik avtomobilləri, mikroavtobus və avtobuslara yanaşı, səhra şəraitində əsgərlərin yemək və su tələbatını ödəmək üçün təyin edilmiş arxa təminatı avtomobil texnika və qurğuları, səyyar soyuducular, səyyar tipli çörək zavodları, su çənləri və səhra mətbəxləri də cəlb edilib.

Ən yaxşı nəticəni göstərən hərbi hissələr baxış-müsabiqənin sonunda keçici nişanla mükafatlandırılıb.

**Nəriman NƏCƏFOV**

## Növbəti əmək yarmarkası



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq muxtar respublikada əmək yarmarkalarının keçirilməsi davam etdirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası Culfa rayonunda keçirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, muxtar respublikada işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradılır, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkili, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, sosial qayğıya ehtiyacı olan ailələrin özünüməşğulluqlarının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Qeyd olunub ki, mütəmadi təşkil edilən əmək yarmarkaları da əhalinin məşğulluğunun təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Hərbi xidmətdən yeni tərxis olunmuş gənclərin də iştirak etdiyi əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 26 müəssisədən 114 boş iş yeri təqdim edilib. Nəticədə, 22 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 12 nəfərin özünüməşğulluq proqramına, 9 nəfərin isə peşə hazırlığı kurslarına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Günümüzün sürətlə inkişaf edən sığorta növü – *aqrar sığorta*

*Könüllü sığortalar könüllülük prinsipi əsasında təsdiq edilən qaydalar çərçivəsində aparılır və hər bir sığortalının mənafeyini tam həcmdə təmin edir. Könüllü sığortalar insanların marağına səbəb olan bir neçə sığorta növünə malikdir. Onlardan ən əsası aqrar sığortadır. Bu sığorta növü çox böyük və genişmiqyaslı sahə sayılır. Belə ki, aqrar sahə muxtar respublika iqtisadiyyatında sənayedən sonra ikinci böyük sahə olduğundan aqrar sahənin potensial risklərdən zərər görmədən dayanıqlı inkişafını təmin etmək üçün məqsədyönlü tədbirlər diqqət mərkəzində saxlanılır. Artıq bu sığorta növü muxtar respublikanın rayon və kəndlərində əksər vətəndaşların maraq obyektinə çevrilib. Kənd təsərrüfatı ilə məşğul olan hər bir kəs bu sığorta növünün əhəmiyyətini və vacibliyi dərindən dərk edir.*

Aqrar sahə kənd təsərrüfatı üçün əvəzolunmaz faktordur və bu sahə üzrə aparılan sığorta növləri ən sərfəli şəkildə muxtar respublikanın ucqar dağ kəndlərində belə, vətəndaşların istifadəsindədir. Bunun ifadəsidir ki, aqrar sığorta üzrə müqavilə bağlanılması üçün artıq vətəndaşlar tərəfindən Dövlət Sığorta Xidmətinə, xidmətin rayon (şəhər) idarə və şöbələrinə tez-tez müraciətlər edirlər.

Aqrar sığorta üçün müraciətlər sırasında meyvə-tərəvəzçiliklə məşğul olanlar da çoxdur. Meyvə-tərəvəz sığortası müqavilələri ağaclarda çiçəkləmə mərhələsi başa çatdıqdan, bostanlarda isə cücərtilər alındıqdan sonra onlara baxış keçirilir və sığorta müqaviləsi bağlanılır. Meyvə-tərəvəz sahələrinin sığortalanmasından sonra baş verən sığorta hadisələri zamanı dəyən zərərin məbləği vətəndaşlara ödənilir. Baş verə biləcək gözlənilməz təbii fəlakətlər – torpaq sürüşməsi, qasırğa, fırtına, dolu, həmçinin yanğınlar, bitki xəstəlikləri və zərərvericilər gün keçdikcə artır. Elə bu səbəbdən də sığorta müqaviləsinin bağlanılması artıq günümüzdə zəruri hala çevrilib.

Bu sahədə işlərin davamlılığının və dayanıqlılığının təmin olunması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" təsdiq olunub ki, bu da meyvə-tərəvəz sığortası sahəsində inkişafın sürətlənməsi yolunda atılmış ən böyük addımdır.

Bu proqramın icrası ilə bağlı Dövlət Sığorta Xidmətində 2021-ci ildə görüləcək işlər üzrə təsdiq olunmuş tədbirlər planına uyğun olaraq muxtar respublikanın rayon və kəndlərində salınmış meyvə bağlarının və tərəvəz əkini sahələrinin inkişaf etdirilməsi məqsədilə müntəzəm olaraq görüşlər keçirilib. Bəhs olunan dövrdə Şərur rayonunun Oğlanqala, Ordubad rayonunun Dəstə, Culfa rayonunun Ərəzin, Şahbuz rayonunun Türkeş, Kəngərli rayonunun Böyükdüz, Babək rayonunun Uzunoba, Sədərək rayonunun Sədərək, Naxçıvan şəhərinin Qaraçuq kəndlərində "Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidməti" publik hüquqi şəxs tərəfindən Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi, rayon (şəhər) icra hakimiyyətləri əməkdaşlarının iştirakı ilə keçirilən maarifləndirmə tədbirlərində vətəndaşlara adıçəkilən sığorta növü barədə ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, aqrar sığortanın ən önəmli və üstün tərəfi bu sığorta növünün sığortaçının mənafeyinə deyil, sığorta olunanın marağına xidmət göstərməsidir.



Bu gün Naxçıvanda mövcud torpaq, su, iqlim ehtiyatlarından, habelə maddi-texniki bazadan səmərəli istifadə olunması ilə yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları istehsalı üçün hər cür imkanlar vardır. Aqrar sığortada aparılan təkmilləşdirmələr bu sahədə çalışan sahibkarların daha təhlükəsiz işləməsinə, onların sabit gəlir əldə etməsinə əlverişli şərait yaradıb.

Son dövr ərzində görülən işləri nəzərə alaraq artıq əminliklə demək olar ki, meyvə-tərəvəz sığortası aqrar sığortanın ən mühüm sığorta növlərindən birinə çevrilib.

**Şəfa ƏHMƏDLİ**

***Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidmətinin əməkdaşı***

***Atalarımız yaxşı deyiblər: “Ana kimi yar olmaz, Vətən kimi diyar”. Vətən hər birimiz üçün müqəddəsdir. Vətənə sevginin, məhəbbətin təməlini valideynlərimiz qoyur. Onlar uşaq vaxtlarımızdan: “Vətən nə deməkdir?”, “Vətənimiz haradır?”, “Dilimiz, dinimiz nədir?” – kimi suallarımızı cavablandıraraq, ilk növbədə, bizə Vətənə məhəbbət və sevgi aşılayırlar. Orta məktəb illərində müəllimlərimiz tərəfindən vətənpərvərlik hissinin təbliği isə Vətən sevgisini daha da möhkəmləndirir. Beləliklə, zaman ötdükcə Vətənə sadiq, layiqli gənclər kimi yetişirik. Ölkəmizin hər yerində uşaqlara, gənclərə Vətənə sevgi, torpağa bağlılıq hissi aşılanır. Ancaq mən xüsusi olaraq doğma yurdumdan, Naxçıvan diyarından söz açmaq istəyirəm.***

Estafet

## Vətənpərvərlik Vətənə sevgi və sədaqətdən başlayır

Muxtar respublikamızda gənclərin vətənpərvər ruhda yetişməsi üçün dövlətimiz tərəfindən bir sıra tədbirlər həyata keçirilir. Vətənpərvərliklə bağlı müxtəlif tədbirlərin təşkilində gənclər iştirakçı kimi böyük rol oynayır. Qeyd etmək istəyirəm ki, Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasında təhsil alan tələbələr də bu mövzuda böyük təşəbbüslərlə çıxış edirlər. Onların təşkilatçılığı ilə keçirilən “Jurnalist vətənpərvərliyi – gəncliyə örnək” adlı tədbir yaddaqalan tədbirlərdən biridir. Ali təhsil ocağında gənclərimizə örnək olacaq, onlarda Vətənə məhəbbəti, sevgini təbliğ edən belə tədbirlərin təşkili davamlı xarakter alıb.

Belə tədbirlərin ifadəsidir ki, muxtar respublika gənclərinin vətənpərvərliyinin, birliyinin ən gözəl nümunəsini biz 44 günlük şanlı Vətən müharibəsində gördük. ***“Naxçıvanlılar İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər”.*** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu fikirləri naxçıvanlı gənclərin vətənpərvərliyini bir daha sübut edir. Qanı ilə tarix yazan igidlərimizin şücaəti ilə qazandığımız şanlı zəfərimiz bütün dünyaya bəyan etdi ki, yurdumuzda elə bir insan yoxdur, Vətən uğrunda canından keçməyə hazır olmasın. Çünki biz gənclər Vətənimizə məhəbbətlə böyüyürük. Vətən torpaqlarını qorumağı canımız, qanımız bahasına özümüzə borc bilirik. Məhz duyğulardır ki, doğma Vətənimizin ən çətin anında belə, gənclərimiz gözünü qırpmadan müharibəyə yollandılar. Onların bir çoxu müharibəyə könüllü getdilər. Torpaqlarımızın işğaldan azad edilməsi yolunda ölümün gözünə dik baxaraq Vətən yolunda ən ali zirvə sayılan şəhidlik məqamına yüksəldilər. Məhz buna görədir ki, Vətən, torpaq dedikdə ağıllara ilk olaraq bu torpaqlar uğrunda canından keçən igid oğullarımız, şəhidlərimiz gəlir. Əbəs yerə deyilməyib ki, “Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir”. Heç vaxt unutmayacağımız igidlər bizə sözlərlə ifadə olunmaz bir sevinc bəxş etdilər. Onların sayəsində uzun illərdir, həsrətini çəkdiyimiz torpaqlarımıza qovuşduq. Sinəsini düşmən gülləsinə sipər edən neçə-neçə Vətənə sədaqətli, öz peşəsini layiqincə yerinə yetirən qeyrətli Vətən oğulları öz vətənpərvərliyi, cəsurluğu, mərdliyi, şücaəti ilə gələcək nəsillərə örnək olacaq bir qəhrəmanlıq salnaməsi yazıb, tarix yaratdılar. Ulularımızın yadigarı olan Vətən torpaqlarını işğaldan azad edərək bizə əmanət qoyub getdilər. O torpaqlar ki, hər qarışı Azərbaycan deyir. Hər addımı qəhrəman, vətənpərvər oğulların alın tərinin zəhməti, qanı, canıdır. Bütün bunlar vətəndaşlarımıza, xüsusilə də gənclərə vətənpərvərlik hissinin aşılanmasında dövlətin apardığı mühüm dəyərdir.

Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***“Milli dəyərlərimizi, ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik”…***

Bəli, bu gün ulu öndərin yolunun sədaqətlə davam etdirildiyi muxtar respublikamızda gənclər milli vətənpərvərlik ruhunda tərbiyə olunur və ölkəmizin daha da inkişafına öz töhfələrini verirlər.

**Səma TAĞIYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

## Üç qalib komandanın adı məlumdur



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə uşaq futbolu üzrə U-10, U-11, U-12, U-13 və U-14, eləcə də ölkənin ən kütləvi məktəbli futbol turniri olan AFFA “Coca-Cola Məktəbli Kuboku”nun mərhələ yarışlarında final görüşləri keçirilib.

Uzunoba Təlim-Məşq İdman Kompleksində olimpiya sistemi üzrə keçirilən çempionatın ilk finalında 12 yaşlılardan ibarət “Kəngərli” və “Araz-Naxçıvan” komandaları meydana çıxıb. Daha baxımlı oyun sərgiləyən Naxçıvan təmsilçisi meydanı 7:1 hesablı qələbə ilə tərk edərək yarışın baş mükafatını qazanıb.

U-14 liqasında “Araz-Naxçıvan” UGİM (Şərur) komandasını sınağa çəkib. Görüş birincilərin 10:3 hesablı qələbəsi ilə başa çatıb.

Günün son qarşılaşması isə “Coca-Cola Məktəbli Kuboku”nun finalı olub. Həlledici qarşılaşmada “Şərur” və “Naxçıvan” komandaları üz-üzə gəlib. Daha üstün oyun nümayiş etdirən şərurlular 5:4 hesabı ilə qalib gəliblər. Qeyd edək ki, bu gün daha 3 final görüşü keçiriləcək. Belə ki, azarkeşlər UGİM (Şərur) - “Araz-Naxçıvan” (U-13), UGİM (Şərur) - “Araz-Naxçıvan” (U-11) və “Şərur” - “Araz-Naxçıvan” (U-10) oyunlarını izləyəcəklər.

Qalib olan komandalar final mərhələsinə vəsiqə əldə edəcək. Final mərhələləri Bakı şəhərində təşkil olunacaq.

## Şəhər birinciliyi keçirilib



Naxçıvan şəhərindəki “N” hərbi hissənin təlim-məşq meydanında yaz çağırışına həsr olunmuş “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə şəhər birinciliyi keçirilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəhər İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 17 tam orta məktəbin komandası iştirak edib. Komandalar 100 və 2000 metr məsafəyə qaçış, qumbaraatma və turnikdə dartınma növlərində güclərini sınayıblar.

Yarışın yekununa əsasən 9 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. 14 nömrəli tam orta məktəbin komandası ikinci, 10 nömrəli tam orta məktəbin komandası isə üçüncü yerlə kifayətlənib.

Sonda yer tutan komandalara təşkilatçıların diplom, fəxri fərman və kubokları təqdim edilib.

Qeyd edək ki, 9 nömrəli tam orta məktəbin komandası Naxçıvan Muxtar Respublika zona birinciliyində Naxçıvan şəhərini təmsil edəcək.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Dövlət Universiteti

### *2022-ci il üçün doktorantura və dissertanturaya qəbul elan edir*

Naxçıvan Dövlət Universiteti Nazirlər Kabinetinin 5 mart 2022-ci il tarixli 140 s nömrəli sərəncamı ilə təsdiq edilmiş qəbul planına əsasən aşağıdakı ixtisaslara doktorant və dissertant hazırlığı üzrə qəbul elan edir.

Fəlsəfə doktoru proqramı üzrə

| | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla |
| | | | o cümlədən | | |
| | | | əyani | qiyabi | |
| 1202.01 | Analiz və funksional analiz | 2 | | 2 | |
| 2002.01 | Deformasiya olunan bərk cisim mexanikası | 1 | | 1 | |
| 2220.01 | Yarımkeçiricilər fizikası | 1 | | 1 | |
| 2307.01 | Fiziki kimya | 1 | | 1 | |
| 2317.01 | Nanokimya və nanomateriallar | 1 | | 1 | |
| 2401.01 | Zoologiya | 1 | | 1 | |
| 2409.01 | Genetika | 1 | | 1 | |
| 2411.01 | İnsan və heyvan fiziologiyası | 2 | | 2 | |
| 2417.01 | Botanika | 1 | | 1 | |
| 2426.01 | Ekologiya (elm sahələri üzrə) | 1 | | 1 | |
| 3205.01 | Daxili xəstəliklər | 1 | | 1 | |
| 3212.01 | Səhiyyə və onun təşkili | 1 | | 1 | |
| 3214.01 | Toksikologiya | 1 | | 1 | |
| 3220.01 | Pediatriya | | | | 1 |
| 3226.01 | Stomatologiya | | | | 1 |
| 3304.01 | Kompüter qurğuları və texnologiyası | 1 | 1 | | |
| 3305.02 | İnşaat mexanikası | 1 | 1 | | |
| 3308.01 | Ətraf mühitin texnologiyası və mühəndisliyi | 1 | 1 | | |
| 3338.01 | Sistemli analiz və idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə) | 1 | | 1 | |
| 3400.02 | Əczaçılıq kimyası, farmakologiya | 1 | | 1 | 1 |
| 5308.01 | Ümumi iqtisadiyyat | 3 | 1 | 2 | 1 |
| 5303.01 | Mühasibat uçotu | 1 | | 1 | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 1 | | 1 | |
| 5312.01 | Sahə iqtisadiyyatı | 1 | 1 | | |
| 5401.01 | İqtisadi coğrafiya | 1 | | 1 | |
| 5503.02 | Vətən tarixi | | | | 2 |
| 5507.01 | Beynəlxalq münasibətlər tarixi | 1 | | 1 | |
| 5607.01 | Konstitusiya hüququ; bələdiyyə hüququ | 1 | | 1 | |
| 5611.01 | Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ | | | | 1 |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | |
| 5708.01 | German dilləri | 2 | 1 | 1 | |
| 5709.01 | Roman dilləri | 1 | | 1 | |
| 5713.01 | Sami dilləri | 1 | | 1 | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | |
| 5720.01 | Jurnalistika | 1 | | 1 | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası | 2 | | 2 | 1 |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 1 | | 1 | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | | 1 | |
| 5901.01 | Beynəlxalq münasibətlər | 2 | 1 | 1 | 1 |
| 5909.01 | Dövlət idarəçiliyi | | | | |
| 6203.01 | İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi | 1 | | 1 | |
| 6213.01 | Musiqi sənəti | 2 | | 2 | 1 |
| 6215.01 | Təsviri sənət | 1 | | 1 | |
| 6218.01 | Dekorativ-tətbiqi sənət | | | | 1 |
| 6220.01 | Muzeyşünaslıq | 1 | | 1 | 1 |
| 6303.01 | Ümumi sosiologiya | 1 | | 1 | |
| 6405.01 | Şəhərsalma, yaşayış məntəqələrinin planlaşdırılması, landşaft memarlığı | 1 | | 1 | |

Elmlər doktoru proqramı üzrə

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** |
| | | | o cümlədən | | |
| | | | əyani | qiyabi | |
| 2417.01 | Botanika | | | | 1 |
| 3220.01 | Pediatriya | | | | 1 |
| 3226.01 | Stomatologiya | 1 | 1 | | |
| 5312.01 | Sahə iqtisadiyyatı | | | | 1 |
| 5503.02 | Vətən tarixi | | | | 1 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası | | | | 2 |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 1 | 1 | | |
| 5909.01 | Dövlət idarəçiliyi | | | | 1 |

Sənəd qəbulu “ Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Xarici dil imtahanında müvəffəqiyyət qazanmış və doktoranturaya sənəd vermək istəyən namizədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin *portal.edu.az* saytına daxil olaraq “Ali və orta ixtisas təhsil müəssisələrinin tələbə qəbulu və qeydiyyatı” xidmətini seçərək təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçən namizədlər üçün fəlsəfə fənni üzrə imtahan 1, 2, 5 sentyabr, ixtisas imtahanı isə 12, 13 sentyabr tarixlərdə keçiriləcəkdir.

Qeydiyyat 5 aprel-5 may tarixləri arasındadır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 302